**Proqram təminatının tətbiqi üzrə**
**TƏLİMAT**

| | | |
|---|---|---|
| 1 | vBooks proqram təminatını Android platformasında mobil qurğuya yükləmək üçün GooglePlay standart proqramına keçmək lazımdır. | 1 |
| 2 | vBooks proqramını telefona yükləyib sazlayandan sonra proqram təminatını yükləmək üçün müvafiq nişanı tapırsınız. | 2 |
| 3 | Proqramı işə salanda onun əsas menyu pəncərəsinə düşürsünüz. | 3 |
| 4 | Sizin qarşınızda iki üfüqi zolaq açılacaq. Həmin zolaqlarda kitabların adları və üz qabıqları yerləşir.<br>Üst zolaqda Virtual kitabxanaya yüklənmiş son kitablar, alt zolaqda isə Virtual kitabxananın ən çox oxunan kitabları göstərilir. | 4 |
| 5 | Əsas pəncərənin yuxarı hissəsində daha bir zolaq - kitabların axtarışı zolağı var.<br>Universal axtarış Sizə lazım olan kitabları həm kitabların müəlliflərinə görə, həm də kitabın adına görə axtarmaq imkanı verəcək. | 5 |
| 6 | Sizə lazım olan kitabı tapandan sonra, “YÜKLƏ” düyməsini basıb həmin kitabı öz telefonunuza yükləyə və ya kitabın özünün ikonasını basıb onu oxuya bilərsiniz. | 6 |
| 7 | Kitabı telefona yükləyəndə o, “Mənim kitablarım” bölməsinə düşür. Siz kitabı həmin bölmədə açıb oxuya bilərsiniz. | 7 |
| 8 | “Mənim kitablarım” bölməsinə proqram pəncərəsinin yuxarı sol küncündə yerləşən menyu vasitəsilə keçə bilərsiniz. | 8 |
| 9 | Kitabı oxuyanda o, açılmış və artıq oxunmuş kitab kimi qeyd edilir. | 9 |
| 10 | Kitabı oxuyarkən, Siz mütaliəni dayandırdığınız səhifəyə əlfəcin yerləşdirə bilərsiniz. | 10 |
| 11 | “Mənim kitablarım” bölməsində filtrlər tətbiq etmək olar.<br>Filtrləri kateqoriyalar üzrə, əlfəcinli kitablar üzrə və hələ oxumadığınız kitablar üzrə tətbiq etmək olar. | 11 |
| 12 | Menyuda həmçinin, Sizə lazım olan kitablar kateqoriyasına da keçə bilərsiniz. | 12 |
| 13 | Bundan əlavə, oxunmuş kitabları “Mənim kitablarım” bölməsindən silmək olar. | 13 |
| 14 | Oxumaqda olduğunuz kitabda sizə lazım olan mətni axtarmaq, mətnin seçilmiş fraqmenti üzərində sonradan müəyyən əməliyyatlar aparmaq üçün həmin fraqmenti mübadilə buferinə köçürmək olar. | 14 |
| 15 | Menyudakı elementlərdən biri “HAQQINDA” adlanır.<br>Burada proqramın cari versiyasına və təşkilatların bu proqramın hazırlanması haqqında təşəbbüsünə dair informasiya verilmişdir. | 15 |

*** vBooks Mobil Kitabxana proqramını "QR scaner" smartfonlar və planşet üçün nəzərdə tutulan vasitəsi ilə telefonuna yüklə ***